# Nəriman Nərimanov – Şərqin yeganə xilas yolu: İdarəetmə sisteminin dəyişməsidir



**Bu gün qədim Şərq müstəbidlərin əlində çırpınmağa davam edir, bu gün qədim Şərq həyatla vidalaşır, həyat onu tərk edir. Qədim Şərqin vəziyyəti günü gündən pisləşir.**

Bunun səbəbi idarəetmə sistemindədir.

Köhnə üsul-idarəni saxlamaqla Şərqi bəladan xilas etmək mümkün deyil.

Əgər Avropa bu gün Şərqdən əl çəksə idi, o zaman nəyəsə ümid bəsləmək olardı, onda ola bilsin ki, Şərq tədricən maariflənərək, xoşbəxtlik əldə edə bilərdi. Lakin belə bir şey mümkündürmü? Avropa, xüsusilə Antanta, Şərqdən geri çəkilməyəcək … Meydanın boş olduğunu görən və Şərqdə bir bazara ehtiyac duyan Avropa bu meydanda xüsusi cəsarətlə at oynadır.

Türkiyə, İran, Əfqanıstan, Ərəbistan, Hindistan, Misir üçün gözyaşı tökənlər birdəfəlik başa düşməlidirlər ki:

**Avropa imperializmi, ya da daha dəqiq desək, günü gündən inkişaf edən Avropanın sənaye dünyası Şərq bazarından, Şərq məhsullarından asılıdır. Buna görə Şərq üçün tərəqqi yasaqlanmışdır.**

İngiltərə, əlbəttə ki, İranın inkişafını istəməz, İranın fabrik və zavodlara sahib olmasını istəməz. Zira əgər sabah İran tərəqqi yoluna qədəm qoysa, indi İngiltərədən satın aldığı məhsulları özü istehsal edəcək, fabrik və zavodlar üçün lazım olan pambıq və yunu özündə saxlayacaq; əgər başqa şərq ölkələri də inkişaf yolunu tutarlarsa, şübhəsiz ki, onlar Britaniya, Fransa və digərlərinə iqtisadi cəhətdən böyük bir zərbə vuracaqlar.

**Buna görə, Antantaya ümid bəsləyən və İran, Türkiyə və ya hər hansı bir başqa şərq ölkəsini inkişaf yoluna çıxarmaq üçün onun mühəndis və ya təhsilli**

**insanlarının köməyinə bel bağlayan, bu mühakimələrdən çıxış edərək, hər gün öz vətənini kiməsə satan hansısa bir şərq diplomatı bu gün öz millətinin xaini, vətəninin xaini, insanlığın xaini elan edilməlidir. Antanta elə də axmaq deyil ki, öz əlləri ilə özünə qəbir qazsın.**

Şərq diplomatları isə öz vətənlərinə, millətlərinə quyu qazmağa davam edirlər. **Beyinlərini pas, ruhlarını qızıl çürütmüş Şərq diplomatları Şərqi xilas edə bilməyəcəklər; onlar beynəlxalq səciyyəli bir çox problemin mahiyyətini öz vətəndaşlarından gizlədirlər və beləliklə vətənlərinə münasibətdə xəyanət edirlər.**

**Şərqi yalnız orada bərqərar olmuş idarəetmə sisteminin dəyişməsi xilas edə bilər. Əgər monarxiya Şərqi gözü bağlı halda satırdısa, "demokratik" hökumət eynisini gözü açıq halda edir.**

**Monarxiya zamanı Vətəni, milləti bir şərəfsizin əli ilə satırdılarsa, "demokratik" idarəetmə üsulu Vətəni, milləti beş, yaxud on şərəfsizin əli ilə satır.** Birdəfəlik və daim yadda saxlamaq lazımdır: Vətənin qayğısını yalnız onunla ruhən əlaqədə olan, vətənlə birgə ağlayan və gülən birisi çəkə bilər. Buna görə Şərqdə belə bir şüar elan olunmalıdır: **"Yalnız o şəxs seçib-seçilmək hüququna malikdir ki, o, özü üçün deyil, Vətəni, ölkəsi üçün çalışır". Bu – Sovet idarəetmə sisteminin əsasıdır: hər kəs öz ağlını, gücünü ölkənin hərtərəfli inkişafı naminə sərf etməlidir; yəni hər kəs hamı üçün və hamı hər kəs üçün çalışmalıdır. Zəhmətkeşlər bu şüarın yazıldığı bayraq altında birləşməli və yalnız ölkə naminə çalışmalıdırlar.**

Zəhmətkeşlərin hansı sinfi hər zaman bizimlədir, bizim gücümüzü, inqilabın ruhunu təşkil edir?

İlk növbədə fəhlələr – günəmuzd işləyən fəhlələr. Fabriklərdə, zavodlarda, emalatxanalarda işləyən, nə evi, nə bağı, nə də başının üzərində daimi bir damı olmayan, həmişə ac və yarımçılpaq fəhlələr.

Bunlar bizim təməlimiz, etibarlı ordumuzdur, həqiqi təbliğatçılarımızdır.

İkincisi, torpağı öz əməyi ilə becərən kəndlilər.

Çörəyi bol olan bir ölkə digər ehtiyacların da öhdəsindən asanlıqla gələ bilər.

Şərqli kəndlilərin əlləri ilə Avropa zavodları üçün lazım olan pambıq, yun və s. yetişdirilir.

Üçüncüsü, əməyini, biliyini və yaradıcılığını öz vətənlərinin xidmətinə həsr edən bütün sənətkarlar. Onlar ölkənin ehtiyac duyduğu məhsulları istehsal edir və bununla da müəyyən dərəcədə onun tələbatlarını təmin edirlər.

Dördüncü, əhalinin yazan hissəsi. Onlar qələmləri ilə ölkələrinə xidmət edir, bütün güclərini elmin inkişafına verirlər.

Bunlardan əlavə, ölkənin işlərinə qatılan hər kəs seçə və seçilə bilər.

Səhərdən axşama qədər öz dükanında oturan baqqal başqaları tərəfindən istehsal olunan məhsulları satır və bundan qazanır. Onun və onun kimilərinin seçmək və seçilmək hüququ yoxdur, çünki bu kəslərin vətən ilə mənəvi əlaqəsi yoxdur.

**Müharibə baş verəndə, Vətən ağır vəziyyətə düşəndə, bu qəbildən olan insanlar göz yaşı tökmürlər, gülürlər, çünki bazar bahalaşır; başqalarının əməyi ilə yaşayanlar üçün "vətən", "ölkə", "millət", "insanlıq" ifadələri boş bir səsdir.**

Onlar ölkəni bağça almaları kimi asanlıqla alıb satırlar … Onlar ölkəni inkişaf yoluna çıxaran, onu yaşadan, hüquqlarını qoruyan qanunlar dərc etməyə qadir deyillər.

**Ona görə də ölkənin taleyini zəhmətkeşlərə tapşırmaq lazımdır, yəni Şərqdə Sovet hakimiyyəti sistemi elan edilməlidir.**

Bu sistem Şərqi doğru yola çıxaracaq.

Birincisi, bu şərqin müstəqilliyinə, ikincisi təhsilin coşqun çiçəklənməsinə təkan verəcəkdir. Belə bir sistem qərarlaşmayana qədər qədim Şərq başqasının tapdağı altında əzab çəkərək, cahilliyin iylənmiş bataqlığında boğulacaqdır.

Şərqdə bu gün mövcud olan hökumət sistemlərindən nə indi, nə də gələcəkdə azadlıq gözləmək olmaz.

**Əgər kimsə Şərqin sovet sistemini qəbul etməsini hələ çox erkən olduğunu deyirsə, o kəs kordur, kardır və başı işləmir.**

**Ümumavropa inqilabının baş verməməyinin əsas səbəblərindən biri, Şərqin yatması idi. Buna baxmayaraq, biz deyirdik: əgər Avropada gözlədiyimiz**

**və istədiyimiz inqilab baş verərsə, Şərq özünün bugünkü idarəetmə sistemi ilə bir daha Avropanın ictimai sovet respublikalarından kənarda qalmayacaq. Bu barədə Avropanın iqtisadi siyasəti, sənaye qüdrəti açıq-aşkar bəhs edir … Şərq hazırkı idarəetmə sistemi ilə Avropa inqilabından öz qurtuluşunu gözləməməlidir.**

Deməli, Avropada inqilabın nə zaman baş verəcəyinin əhəmiyyəti yoxdur.

Qədim Şərqin yeganə qurtuluş yolu var – idarəetmə sistemində dəyişiklik.

Vətənin hər oğlu hər kəs üçün, hamı isə onun üçün yaşamalı və işləməlidir.

**Yaşasın Sovet hakimiyyəti!**

**Yaşasın zəhmətkeşlərin hakimiyyəti!**

***N.Nərimanov***

**ARPİİSSA, f. 609, s. 1, iş 28 "b", v. 10**